# Energetika Nazirliyində 20 Yanvar faciəsinin 35-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib



**Energetika Nazirliyində xalqımızın müstəqillik və istiqlal uğrunda apardığı milli azadlıq hərəkatının zirvəsi kimi Azərbaycan tarixinə həkk olunmuş 20 Yanvar faciəsinin 35-ci ildönümünün anım tədbiri keçirilib.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, energetika nazirinin müavini Samir Vəliyev tədbiri açıq elan edərək, Qanlı Yanvar hadisəsinin xalqımız üçün həm böyük faciə, həm də misilsiz qəhrəmanlıq səhifəsi olduğunu vurğulayıb və onun təklifi ilə Azərbaycanın azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Daha sonra 20 Yanvar hadisələri ilə bağlı çıxış dinlənilib. Qeyd olunub ki, Azərbaycan xalqının başına gətirilən qanlı hadisəyə ilk siyasi-hüquqi qiyməti faciədən dərhal sonra Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək, bu əməlin demokratiyaya və humanizmə tamamilə zidd olduğunu cəsarətlə bəyan edən Ümummilli Lider Heydər Əliyev verib. Ulu Öndərin siyasi yolunu uğurla davam etdirən Prezident İlham Əliyevin şəhidlərin xatirəsinin əbədiləşdirilməsinə və şəhid ailələrinin sosial problemlərinin həllinə hər zaman xüsusi diqqət göstərdiyi vurğulanıb. Müzəffər Ali Baş Komandanın rəhbərliyi və ordumuzun şücaəti nəticəsində qazanılmış Zəfərlə 20 Yanvar şəhidlərinin də qisasının alındığı bildirilib.

Tədbirin sonunda Qanlı Yanvar hadisələrindən bəhs edən videoçarx nümayiş olunub.

Azərbaycan.- 2025.- 18 yanvar (№ 11).- S.10.